# Böyük Qayıdış: məşğulluq təmin edilir




**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış zamanı keçmiş məcburi köçkünlərin rahat və təhlükəsiz yaşayış şəraitinin qurulması, onların iqtisadi imkanlarının genişləndirilməsi və məşğulluğunun təmin edilməsi ön plandadır. Prezident İlham Əliyev keçmiş məcburi köçkünlərin maddi rifah halının yaxşılaşdırılmasını hər zaman diqqət mərkəzində saxlayıb. Dövlət başçısının rəhbərliyi ilə gerçəkləşən "Böyük Qayıdış" Proqramı Qarabağda və Şərqi Zəngəzurda dayanıqlı məskunlaşmanı, iqtisadi fəaliyyətə reinteqrasiyanı təmin edir.**

Misilsiz zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış genişmiqyaslı şəkildə aparılır. Bərpa-quruculuq müqəddəs torpaqların gözəlliyinə gözəllik qatır. Bu rayonlarda kənd təsərrüfatı, xidmət sahələri, turizm və tikinti sektoru əhalinin sosial rifahını daha da gücləndirir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xüsusi diqqəti və tapşırıqları əsasında doğma yurda rahat, təhlükəsiz və ləyaqətli qayıdışının təmin edilməsi üçün bütün zəruri tədbirlər görülür. Onların məşğulluğunun təmin edilməsi üçün istehsalın və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi işləri də uğurla icra olunur, yerli və xarici sərmayədarlar üçün əlverişli biznes mühiti yaradılması üçün müvafiq işlər görülür.

Azərbaycan sosial dövlətdir. Daxili siyasət kursunun mühüm istiqamətlərindən birini də sosial siyasət təşkil edir.

Sosial siyasətin əsas xarakterik cəhətlərindən biri də ölkə əhalisinin ən həssas hissəsi olan keçmiş qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə göstərilən dövlət dəstəyi xüsusilə diqqətəlayiqdir.

Ümumiyyətlə, dövlət başçısının sosial dövlət fəlsəfəsinin əsasında hər bir vətəndaşın layiqli həyat şəraitinin təmin edilməsi prinsipi durur. Azərbaycanda sürətli inkişaf, təbii olaraq, dövlət quruculuğunun bütün sahələrinə, o cümlədən sosial sferaya ciddi sirayət edərək bir çox sosial proqram və layihələrdə real əksini tapır. Əlbəttə, ölkəmizin iqtisadi qüdrətinin artması vətəndaşların sosial rifahının yüksəldilməsinə yönəlmiş layihələrin həyata keçirilməsinə zəmin yaradıb.

Böyük Qayıdış prosesi mərhələli şəkildə həyata keçirildikcə məşğulluğun təmin edilməsi üçün ardıcıl tədbirlər görülür. Azərbaycanda məşğulluğun genişləndirilməsi dövlət siyasətinin ana xəttindən biridir. Dövlət öz doğma yurdlarına qayıdacaq insanların iş məsələsini də qabaqcadan həll edir. Belə ki, bu ərazilərdə aqropark, sənaye parkları, istehsal müəssisələri inşa olunur. Bu da hər bir yaşayış məntəqəsinə qayıdacaq insanların məşğulluq məsələlərinin həllində mühüm rol oynayır.

Prezident İlham Əliyev Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşündəki çıxışında demişdir: "İndi Azərbaycan Ermənistanın xarabazara çevirdiyi torpaqlarda yeni şəhərlər və kəndlər inşa edir. "Böyük Qayıdış" Proqramı icra edilir. Bu günə qədər 16 şəhər və kəndə keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmişik. Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır".

Yeni layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi məcburi köçkünlərin doğma yurdlarına qayıdışı prosesində onların məşğulluq məsələlərinin həlli istiqamətində məqsədyönlü zəruri işlər aparır. Dövlət Məşğulluq Agentliyi Cəbrayıl şəhərinə köçürülmüş sakinlərdən artıq 686 şəxsi məşğulluq tədbirlərinə cəlb edib. Onlardan 633 şəxsin rayon ərazisində məşğulluğu təmin edilib (o cümlədən rayona köçürülmüş sakinlərdən 27 nəfər üçün özünüməşğulluq proqramı üzrə kiçik təsərrüfatlar yaradılıb), 53 sakin isə peşə kurslarına cəlb olunub. Həmçinin, Zəngilan rayonunun Ağalı kəndinə köçürülmüş sakinlərdən 359-u məşğulluq tədbirlərinə cəlb edilib ki, bunlardan da 322-i məhz rayon ərazisindədir. 37 sakin isə peşə kurslarına yönəldilib. Hazırda daha bir qrup sakinin məşğulluğuna dəstək işləri aparılır.



Sözsüz ki, Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq ölkədə məşğulluğa müsbət təsir göstərir. İqtisadçı-ekspertlərin də qənaətinə görə, Qarabağ bölgəsinin iqtisadiyyatı ilə yanaşı, həm də turizm nöqteyi-nəzərdən yüksək potensialı olduğu üçün bu istiqamətdə də yeni iş yerləri yaradılacaq ki, bu, məşğulluğa böyük bir töhfə olacaq. Beş ilə yaxın bir müddət ərzində işğaldan azad olunmuş ərazilərdə görülən işlər deməyə əsas verir ki, yaradılan yeni müəssisələr sayəsində məşğulluqla bağlı problem yaşanmayacaq. Keçmiş məcburi köçkünlərin daimi yaşayış yerlərinə qayıdışını effektiv həyata keçirən dövlət onların məşğulluq imkanlarını artırmaq üçün lazımı tədbirlər görür.

**Müşfiq MİRZƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 11 iyul (№ 140).- S.9.